UOT 32
https://doi.org/10.30546/3006-0346.2025.3.87.573

# ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ NƏTİCƏSİNDƏ QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SİYASİ PROBLEMLƏRİ

**KƏMALƏ NƏSİROVA**
*Bakı Slavyan Universiteti,*
*doktorant*
*E-mail: kemale.nesirova@mail.ru*

XX əsrin əvvəllərindən başlayaraq qaçqın və məcburi köçkün problemi ilə qarşılaşan dünya birliyi qaçqınların müdafiəsi və onlara yardım göstərilməsi funksiyasını öz üzərinə götürmüşdür. Müasir dünyamızda insanlar daha təhlükəsiz firavan şəkildə yaşamalıdılar. Bəli, yaşamalıdılar. Çox təəssüfedici haldır ki, müharibələrin baş verməsi, qaçqın və məcburi köçkün ordusunun formalaşması dünyanın qlobal problemlərindən biridir. Qaçqın və məcburi köçkün problemi dünyanı öz ağuşuna alıb, desem yanılmaram. Qaçqın və məcburi köçkün problemi Azərbaycan dövlətindən də yan keçməyib.Tarixə nəzər salsaq görərik ki, 1905, 1918-1920, 1948 və sonuncu etnik təmizləmə 1988-1993 cü illəri əhatə edir. Ötən əsrdə xalqımız dəfələrlə qaçqın və məcburi köçkünlüyün siyasi və hüquqi problemləri ilə üzləşmişdir. Sovetlər Rusiyasının 1920-ci ildə Cənubi Qafqazda işğalçılığı ermənilərin ərazi iddialarına daha da rəvac vermişdir, çar Rusiyasının ermənipərəst siyasətini və azərbaycanlıların öz yurdlarından didərgin salınması "strategiyası"nı sovet Rusiyası davam etdirdi. Sonra Zəngəzur da daxil olmaqla Azərbaycanın bir sıra əraziləri torpaqları Emənistana verilmişdir. Daha sonra ermənilərin deportasiya cinayətləri baş vermişdir. Keçmiş SSRİ Nazirlər Soveti 1947-ci ildə Ermənistandan azərbaycanlıların ölkəmizin Kür-Araz ovalığına köçürülməsi haqqında Qərar qəbul etmişdir. Bu sənədə görə 1948- ci ildən başlayaraq 1953-cü ilə qədər 150 min azərbaycanlı kütləvi deportasiyaya məruz qalmışdır (1, s.451). Azərbaycanda qaçqın və məcburi köçkün probleminin ən yüksək nöqtəsi 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü olmuşdur. Təcavüz müasir beynəlxalq münasibətlər sistemində insan hüquqlarını, xüsusilə qaçqın və məcburi köçkünlərin hüquqlarını pozan ən ağır beynəlxalq cinayətlərdən biri sayılır. "Ermənistanın hərbi təcavüzü və Azərbaycanın əks-hücum əməliyyatları" kitabında bu problemə geosiyasi kontekstdə yanaşaraq Dr. S. Məcidli qeyd edir ki, Ermənistan tək Azərbaycana yox, Gürcüstan, Türkiyə və s. dövlətlərə qarşı ərazı iddiaları ilə yanaşı bölgənin əhalisinə diskriminasiya və zorakılıq hərəkətləri etmiş, bu isə bütövlükdə qlobal sülh və təhlükəsizliyə təhdid hesab edilir. 1988-ci ildən başlayaraq Qarabağın azərbaycanlılar yaşayan əraziləri güc yolu ilə boşaldılmış, Xocalı soyqırımı törədilmişdir. Ermənistanın təcavüzü nəticəsində 700 min nəfər azərbaycanlı məcburən köçkün vəziyyətinə düşmüşdür (2, s.109). Bütün bunlar Azərbaycanda qaçqın və məcburi köçkün problemini daha da kəskinləşdirməklə yanaşı, ölkə üçün ciddi sosial-iqtisadi problemlər də yaratmışdır. QAKİ-nin Avropa Regional Bürosu müdirinin müavini Haşim Utkan faktla bağlı demişdır ki, Azərbaycanda hər 8 nəfərdən biri ya qaçqın, ya da məcburi köçkündür. Bu isə Azərbaycan Respublikasının beynəlxalq ictimaiyyətin daim diqqət mərkəzində olacaq qaçqınlar problemi ilə ciddi şəkildə üzləşməsinə sübutdur (2, s.109). Qaçqınlarla bağlı problemlərin həlli respublikamızda bu məsələ meydana gəldiyi gündən bu günə qədər həm ölkədaxili siyasi müzakirələrin, həm də dövlətimizin ikitərəfli və çoxtərəfli danışıqlar predmeti olan və qarşılıqlı beynəlxalq əməkdaşlıqdan irəli gələn mühüm məsələlərdən biri hesab edilir. Cənubi Qafqazda irimiqyaslı strateji layihələrdən Ermənistan kənar qalmış, ölkəmiz isə bu illər ərzində inkişaf etmişdir. Lakin münaqişənin davam etməsi Azərbaycanın dövlət büdcəsində mühüm istiqamətlərdən biri kimi müdafiə xərclərinin artırılmasına gətirib çıxarmışdı. Təcavüz səbəbindən qaçqın və məcburi köçkünlərin mövcudluğu dövlətin sosial və digər problemlərini də artırmışdır (4. s.8). Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə əlaqədar beynəlxalq normalara uyğun tam hüquqi baza yaradılmış, ölkə başçısı tərəfindən qırx üç sənəd imzalanmış, parlament iyirmi üç qanun qəbul etmişdir (5). Qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində qaçqın və məcburi köçkünlərin siyasi problemləri ilə bağlı konseptual və praktiki addımlar Azərbaycan xalqının Ümummili Lideri Heydər Əliyev tərə-

findən atılmış, dünyanın siyasi liderləri ilə keçirdiyi ikitərəfli görüşlərdə, beynəlxalq təşkilatların konfrans və tədbirlərində qaçqın və məcburi köçkünlərin siyasi problemlərinin həlli istiqamətində çıxışlar edərək, onların pozulmuş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı məsələləri daim diqqətdə saxlamışdır. 1994-cü ilin noyabrında Bakı qaçqınlar haqqında qanunvericilik hüquqları və miqrasiya məsələlərinə dair beynəlxalq konfransda Ulu Öndər Heydər Əliyev tərəfindən qaçqınların beynəlxalq müdafiəsi ilə bağlı tarixi çıxış edilmiş, məcburi köçkünlərin, qaçqınların hüquq və azadlıqlarının pozulmasını, xüsusilə bu hüquqların bərpası üçün beynəlxalq qurumlara və xarici dövlətlərə müraciət etmişdir (6, s.502-510). O zaman bu problemin siyasi vasitələrlə həll olunması ilə bağlı tədbirlər görülmüş, ulu öndər H. Əliyev bu problemlərlə bağlı xarici ölkə rəhbərlərilə, qaçqınlarla, məcburi köçkünlərlə çoxsaylı görüşlər keçirmişdir (7). Qaçqınların beynəlxalq miqyasda problemlərinin həlli məsələsini ilk dəfə 1994-cü ilin sentyabrında Ulu Öndər Heydər Əliyev BMT Baş Məclisinin 49-cü sessiyasında qaldırmışdır. Həmin toplantıda Ümummilli Lider Ermənistanın təcavüzü, təcavüzün nəticələri, azərbaycanlıların qaçqın və məcburi köçkünə çevrilməsi ilə bağlı BMT tribunasından çıxış etmiş (8, s.310) və ilk dəfə bu məsələni qloballaşdırmışdır. Elə həmin ildə qaçqınların beynəlxalq müdafiəsi, siyasi və hüquqi problemləri ilə bağlı ilk beynəlxalq saziş imzalanmışdır. Azərbaycan və BMT-nin Uşaq fondu ilə 1994-cü il Əməkdaşlıq Sazişində qaçqın və məçburi köçkün uşaqların və yeniyetmələrin vəziyyətini yüngülləşdirmək üçün yardımların edilməsi nəzərdə tutulurdu. Qeyd etmək lazımdır ki, Azərbaycanda olan qaçqınların və məcburi köçkünlərin 30 faizini uşaqlar təşkil etmişdir (9, s.244-245). Müvafiq problemin tənzimlənməsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr və dövlətdaxili qanunvericilik əsas rol oynayır Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 1992-ci ildə 1951-ci il Konvensiyasına qoşulmuş, həmin beynəlxalq sənədin implementasiyası üzrə bütün öhdəliklər uğurla icra olunur. Universal beynəlxalq təşkilat kimi, BMT-nin qaçqın və məcburi köçkünlər problemi ilə bağlı Azərbaycandakı fəaliyyətinin iki istiqamətini fərqləndirmək lazımdır. Birinci istiqamət birbaşa humanitar yardımın göstərilməsinə, ikinci istiqamət isə humanitar yardımın qaçqın və məcburi köçkünlərin sosial problemlərinin tədricən tam aradan qaldırılmasına yönəlməsi ilə bağlıdır (10, s.448). Ermənistan Respublikasının etnik təmizləməsi nəticəsində 1milyondan çox vətəndaşımız qaçqın və məcburi köçkünə çevrilmişdir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü 1988-ci ildən başlayaraq etnik zəmində silahlı münaqişəyə çevrilmişdir. Bu dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətinin statusu ilə bağlı yaranan münaqişə genişmiqyaslı hərbi əməliyyatlara səbəb olmuş, nəticədə Azərbaycan ərazilərinin 20%-i Ermənistan tərəfindən işğal edilmişdir. Ermənistanın işğal siyasəti beynəlxalq hüquq normalarına zidd olmuş və BMT Təhlükəsizlik Şurasının bir neçə qətnaməsi ilə qınanmışdır. Münaqişənin siyasi təhlili göstərir ki, Ermənistan dövlət siyasəti münaqişəni uzatmaq və Azərbaycanın ərazi bütövlüyünü pozmaq üzərində qurulmuşdur. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti ilk olaraq Ermənistandakı azərbaycanlı əhalinin kütləvi şəkildə qovulması ilə müşahidə olundu. 1988–1990-cı illərdə Ermənistandan təqribən 250 min azərbaycanlı qaçqın vəziyyətinə düşdü. Paralel olaraq, Dağlıq Qarabağ və ətraf rayonlarda da erməni silahlı birləşmələrinin fəaliyyəti nəticəsində minlərlə azərbaycanlı öz doğma torpaqlarını tərk etməyə məcbur oldu. Məcburi köçkünlərin əksəriyyəti ölkənin müxtəlif regionlarında müvəqqəti məskunlaşmış, sosial və iqtisadi problemlərlə üzləşmişlər. Qaçqınların hüquqlarının müdafiəsi Azərbaycan Respublikasının qanunvericiliyində təmin olunmuşdur. Məcburi köçkünlərin sosial müdafiəsi, təhsil və səhiyyə xidmətlərinə çıxışı, həmçinin məskunlaşma məsələləri dövlət proqramları ilə tənzimlənir. Lakin uzun müddət davam edən məcburi köçkünlük onların sosial vəziyyətinə mənfi təsir göstərmiş, siyasi iştirak imkanlarını məhdudlaşdırmışdır. Qaçqın və məcburi köçkünlər üçün əsas siyasi problem onların öz doğma torpaqlarına qayıdış hüququnun təmin edilməməsidir.Qarabağ münaqişəsi 1988-ci ildə başlamış və aşağıdakı əsas mərhələlərdən keçmişdir:1988-1994: Birinci Qarabağ müharibəsi.1994-2016: Atəşkəs rejimi və danışıqlar prosesi,2016-2020: Gərginliklərin artması dövrü,2020:İkinci Qarabağ müharibəsi.Ermənistanın işğal etdiyi ərazilərdə məcburi köçkünlərin əmlak hüquqları pozulmuş, onların qayıdışı üçün şərait yaradılmamışdır. Bu da siyasi gərginliyi artıran əsas amillərdən biridir. Azərbaycanın müdafiə siyasəti qaçqın və məcburi köçkünlərin hüquqlarının müda-

fiəsini əsas prioritet kimi müəyyən etmişdir. 1990-cı illərin əvvəllərində yaranan ağır vəziyyətdən çıxmaq üçün Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və gücləndirilməsi, eləcə də beynəlxalq hüquq çərçivəsində işğala son qoymaq istiqamətində addımlar atılmışdır. Azərbaycan dövləti qaçqın və məcburi köçkünlərin problemlərinin həlli üçün daxili və beynəlxalq səviyyədə ciddi siyasət həyata keçirir. Dövlət proqramları, beynəlxalq təşkilatlarla əməkdaşlıq və diplomatik təşəbbüslər qaçqınların hüquqlarının təmin olunması və qayıdış prosesinin təşkilinə yönəldilmişdir. Məsələn, 2004-cü ildə qəbul olunan Dövlət Proqramı və 2020-ci il sonrası "Böyük Qayıdış" planı bu istiqamətdə önəmli addımlardır. Diplomatik sahədə Azərbaycanın təşəbbüsləri BMT, ATƏT və digər beynəlxalq platformalarda müzakirə olunur. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış qaçqın və məcburi köçkün məsələsi həm humanitar, həm də siyasi baxımdan ciddi bir problem kimi Azərbaycan Respublikasının daxili və xarici siyasətində mühüm yer tutmuşdur. Bu problemin siyasi aspektlərini bu xronoloji ardıcıllıqla ümumiləşdirmək mümkündür:1) Ərazi bütövlüyü və suverenlik problemi.Və bunun nəticəsi olarq hansı siyasi problemlə üz-üzə qaldıq? Ermənistanın 1990-cı illərin əvvəllərində Dağlıq Qarabağ və ətraf 7 rayonu işğal etməsi nəticəsində:Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. 1 milyondan çox azərbaycanlı öz yurdundan didərgin düşmüşdür. Bu, beynəlxalq hüququn pozulması sayılır və Azərbaycanın BMT tərəfindən tanınan sərhədləri çərçivəsində suverenliyinin pozulması kimi qiymətləndirilir. 2) Qaçqın və məcburi köçkünlərin siyasi statusu məsələsi gündəmə gəldi, bu, Azərbaycan dövləti üçün qlobalaşan dünyada qaçqın böhranı kimi qiymətləndirilirdi.Qaçqın və məcburi köçkünlərin vəziyyəti: Azərbaycanın siyasi gündəmində prioritet məsələ kimi dəyərləndirilirdi. Onların geri dönüş hüququ Azərbaycan Konstitusiyası və beynəlxalq hüquqla tanınır. Ermənistan tərəfindən törədilən etnik təmizləmə siyasəti, münaqişənin siyasi və diplomatik həllini çətinləşdirir. 3) Qaçqın və məcburi köçkün probleminə Beynəlxalq Təşkilatların münasibətlərini necə dəyərləndirə bilərik? BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlarda bu məsələnin qaldırılmasına çalışmışdır. ATƏT-in keçmiş Minsk Qrupunun fəaliyyətsizliyini qeyd etməliyik. Regional münaqişənin həllində əhəmiyyətini ititmişdir. Minsk Qrupu münaqişəni dondurulmuş vəziyyətdə saxlamaqda maraqlı idi. Beynəlxalq vasitəçilik missiyası özünü doğrultmadı. Bu işğal beynəlxalq hüququn, xüsusən də BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndinin (başqa dövlətlərin ərazi bütövlüyünə qarşı güc tətbiq etməmə prinsipi) və Helsinki Yekun Aktının kobud şəkildə pozulması idi. BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən 4 qətnamə (822, 853, 874, 884) Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxmasını tələb etsə də, bu sənədlər yerinə yetirilməmişdir. Ermənistan isə bu qətnamələri yerinə yetirməkdən imtina etmişdir, bu da Azərbaycanın haqlı siyasi mövqeyini gücləndirir. Məcburi köçkünlərin insan hüquqları, yaşayış, təhsil, səhiyyə və təhlükəsizlik yaşamaq hüquqları pozulmuşdur. Azərbaycan hökuməti bu insanlara xüsusi status vermiş və geniş sosial proqramlar tətbiq etmişdir.Dünya Azərbaycanın haqq səsinə susur və ədalətsiz, sanki ögey münasibət bəsləyirdi. Ermənistanın Azərbaycana qarşı təcavüzünün arxasında həm tarixi, həm də geosiyasi motivlər dayanırdı:Tarixi iddialar və irredentizm: Ermənistan tərəfi Dağlıq Qarabağı "tarixi erməni torpağı" kimi təqdim etməyə çalışaraq, burada yaşayan erməni əhalisinin öz müqəddəratını təyin etməsi hüququna istinad edirdi". Dənizdən dənizə böyük ermənistan yaratmaq" arzularını gerçəkləşdirmək istəyi əsas amillərdən sayıla bilər. Siyasi ambisiyalar: Ermənistanın daxili siyasi qüvvələri üçün Qarabağ məsələsi həm milli birləşdirici ideya, həm də siyasi legitimlik vasitəsi idi. Regional güc balansı:Ermənistan, münaqişənin ilk mərhələsində Rusiya ilə sıx hərbi-siyasi əməkdaşlıqdan faydalanaraq, Azərbaycana qarşı üstünlük əldə etməyə çalışmışdı. Bu hadisələr nəticəsində Azərbaycan dünyada adambaşına düşən məcburi köçkün sayına görə ən yüksək göstəricilərə malik ölkələrdən birinə çevrilmişdir. 1990-cı illərdə bu əhali çadırlarda, vaqonlarda, yarımçıq tikililərdə, məktəb və uşaq bağçalarında müvəqqəti yerləşdirilmişdir Məcburi köçkünlük sırf hərbi nəticə deyil, məqsədli şəkildə aparılan etnik təmizləmə siyasətinin nəticəsi kimi də qiymətləndirilməlidir. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdə yaşayan azərbaycanlı əhali:Qətl, zorakılıq və psixoloji təzyiqlə üzləşmiş,Xocalı soyqırımı kimi insanlığa qarşı cinayətlərə məruz qalmışdır (Memorial Human Rights Center, 1992). Bu hadisələr beynəlxalq hüquq baxımından Cenevrə Konvensiyalarının və BMT-nin İnsan Hüquqları

Bəyannaməsinin pozulması kimi qiymətləndirilə bilər. Beynəlxalq ictimaiyyət hadisələrə reaksiya versə də, bu günə qədər Ermənistanın məsuliyyəti ilə bağlı ciddi hüquqi mexanizmlər işlədilməmişdir. 44 günlük Vətən müharibəsi sonrası yaranan yeni geosiyasi şərait qaçqın və məcburi köçkünlərin geri dönüş hüququnun reallaşması üçün imkanlar yaratmışdır. Dövlət azad edilmiş ərazilərdə infrastrukturun bərpası, mina təmizləmə və sosial-iqtisadi layihələrə önəm verir. Lakin beynəlxalq ictimaiyyətin Ermənistana təzyiq mexanizmlərinin zəifliyi, sülh prosesinin mürəkkəbliyi problemləri tam həll etməyə imkan vermir. Uzunmüddətli sülh və stabilliyin təmin olunması üçün siyasi dialoq və hüquqi mexanizmlərin gücləndirilməsi vacibdir. 2020-ci ildə baş vermiş Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpasına səbəb olmuş, qaçqınların doğma torpaqlarına qayıdışı üçün hüquqi və siyasi zəmin yaratmışdır 2020-ci ildəki Vətən müharibəsi və əldə olunan qələbə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi.Lakin tam sabitlik və məcburi köçkünlərin təhlükəsiz şəkildə geri qayıtması üçün siyasi və diplomatik səylər davam etdirilməlidir. Azərbaycan ordusu müasir döyüş taktikalarını və texnologiyalarını tətbiq edərək, dronlardan, kəşfiyyat və elektron müharibə vasitələrindən effektiv istifadə etmişdir. Düşmənin müdafiə xətləri müxtəlif istiqamətlərdən sındırılmış və strateji yüksəkliklər ələ keçirilmişdir. Müharibə zamanı beynəlxalq humanitar hüququn aşağıdakı pozuntuları qeydə alınmışdır:Mülki əhaliyə qarşı hücumlar, məktəb və xəstəxanaların bombardman edilməsi,- Tarixi və mədəni abidələrin dağıdılması, əsir düşmüş hərbçilərə qarşı qeyri-insani davranış sərgiləmişlər. 2020-ci ilin payızında 44 günlük Vətən Müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyü əhəmiyyətli dərəcədə bərpa olundu. Bu hərbi və siyasi uğur nəticəsində: İşğalda olan 7 rayon və Şuşa şəhəri azad edildi, Ermənistan kapitulyasiya bəyanatını imzalamağa məcbur oldu (10 noyabr 2020). Yeni reallıq Cənubi Qafqazda geosiyasi balansın dəyişməsinə səbəb oldu. Bu mərhələdə Azərbaycan artıq öz ərazilərinə faktiki nəzarət edir və qaçqın və məcburi köçkünlərin geri dönüşü üçün real zəmin formalaşıb (ICG, 2021). Reinteqrasiya, minaların təmizlənməsi və infrastrukturun bərpası həm də siyasi iradə tələb edir. Ermənistanın hərbi təcavüzü nəticəsində yaranan qaçqın və məcburi köçkün problemi təkcə humanitar deyil, həm də siyasi problem kimi Azərbaycan üçün prioritet təşkil edir. Bu məsələ beynəlxalq hüquq çərçivəsində Azərbaycanın mövqeyini möhkəmləndirir və eyni zamanda sülh prosesinin davamı üçün əsas amillərdən biridir.Ermənistanın Azərbaycana qarşı təcavüzü təkcə hərbi münaqişə deyil, həm də beynəlxalq hüquq və insan hüquqları baxımından ciddi pozuntular yaratmışdır. Bu təcavüz nəticəsində Azərbaycan öz ərazisinin təqribən 20%-ni itirmiş və 1 milyona yaxın insanın taleyi dəyişmişdir. Belə bir vəziyyət təkcə humanitar deyil, həm də dərin siyasi və diplomatik problemləri gündəmə gətirmişdir. Qaçqın və məcburi köçkünlərin yerləşdirilməsi, sosial təminatı, səhiyyə və təhsil hüquqları Azərbaycan dövləti üçün həm humanitar, həm də siyasi yükə çevrilmişdir. Azərbaycan hökuməti bu insanların həyat şəraitini yaxşılaşdırmaq üçün: 2000-ci ildən sonra çadır şəhərciklərini ləğv etmiş,Yeni qəsəbələr və yaşayış məntəqələri salmışdır. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR) məlumatına görə, Azərbaycan bu sahədə Cənubi Qafqaz regionunda ən geniş dövlət proqramı həyata keçirən ölkə hesab olunur (UNHCR, 2015).Qaçqın və məcburi köçkünlərin geri qayıtma hüququ beynəlxalq hüquqda tanınan "geri dönmək hüququ" (right of return) prinsipinə əsaslanır. Bu prinsipə görə, münaqişə və zorakılıq nəticəsində yerindən edilən şəxslər öz doğma yurdlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtmaq hüququna malikdirlər (Universal Declaration of Human Rights, Article 13). 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpası bu hüququn reallaşması üçün real siyasi şərait yaratmışdır. Lakin ərazilərin minalanması, infrastrukturun dağılması və təhlükəsizlik riskləri hələ də tam qayıdışa əngəl yaradır (ICRC, 2021). Qaçqın və məcburi köçkün probleminin mövcudluğu, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına və sabit regional münasibətlərin qurulmasına əngəl törədir.Aşağıdakı faktorlar bu problemi siyasi cəhətdən mürəkkəbləşdirir: Ermənistanda revanşist dairələrin təzyiqləri, repatriasiya hüququnun tanınmaması, geri dönüş üçün beynəlxalq təminatların verilməməsi. 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycan yeni bir mərhələyə keçdi. Azad edilmiş ərazilərə: təhlükəsiz və mərhələli şəkildə məcburi köçkünlərin qayıdışı, infrastrukturun bərpası və yaşıl enerji zonalarının yaradılması, Qarabağ və Şərqi Zəngəzurda "ağıllı kənd" konsepsiyası tətbiq

edilməyə başlandı. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2022-ci ildən etibarən "Böyük Qayıdış" planı dövlət səviyyəsində icra edilməyə başlanmış və artıq ilk mərhələdə məcburi köçkünlərin Laçın, Füzuli, Zəngilan və Tərtərə geri dönüşü təmin olunmuşdur (State Committee for IDPs, 2023). Bu strategiyanın məqsədi təkcə insanların yerləşdirilməsi deyil, həm də onların iqtisadi, sosial və siyasi reinteqrasiyasının təmin edilməsidir. Azərbaycan dövləti azad olunmuş ərazilərdə:İnfrastrukturun bərpasına,Enerji və kommunikasiya xətlərinin çəkilməsinə,Mina təmizləmə əməliyyatlarına,"Ağıllı kənd" və "ağıllı şəhər" layihələrinə prioritet verir.Bu tədbirlər yalnız fiziki yenidənqurma deyil, siyasi reinteqrasiyanın əsas şərtləri kimi dəyərləndirilir. Məcburi köçkünlərin ərazilərə təhlükəsiz və ləyaqətli şəkildə qayıtması, dövlətin strateji məqsədlərindən biridir (UNDP, 2022; ANAMA, 2023). Hazırda sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar prosesinin intensivləşməsi müşahidə olunur. Azərbaycanın təqdim etdiyi əsas mövqelər aşağıdakılardır:Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə tanımalıdır, Sərhədlərin delimitasiya və demarkasiyası aparılmalıdır, Qarşılıqlı olaraq daxili işlərə qarışmama prinsipinə əməl olunmalıdır. Müharibənin nəticəsində regional geosiyasi mənzərədə əhəmiyyətli dəyişikliklər baş vermişdir: Azərbaycanın regional nüfuzunun artması. Türkiyənin Cənubi Qafqazdakı rolunun güclənməsi ilə müşahidə olundu.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Qəniyev H.Q. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. Bakı, 2019, "Elm və Təhsil" nəşriyyatı, - 499 səh.*

2. *Məcidli. S.T. Ermənistanın hərbi təcavüzü və Azərbaycanın əks-hücum əməliyyatları (beynəlxalq hüquqi məsələlər), Dərs vəsaiti. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2021. -308 s.*

3. *Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Dərslik. Bakı, 2009,-490 s.*

4. *Cahangirli C. "Post-konflikt dövründə Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq ". Bakı: "Elm və təhsil", -2021, -165 s.*

5. *Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən 2012-ci il ərzində görülmüş işlər barədə məlumat, http://idp.gov.az/az/law/106/parent/15*

6. *Əliyev H. Ə. Qaçqınlar haqqında qanunvericilik, insan hüquqları və miqrasiya məsələlərinə dair Bakıda keçirilən beynəlxalq konfransda çıxış, 14 noyabr 1994-cü il. –Müstəqilliyimiz əbədidir. II kitab, səh. 502-510.*

7. *Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən 2012-ci il ərzində görülmüş işlər barədə məlumat, http://idp.gov.az/az/law/106/parent/15*

8. *Əliyev H. Ə. BMT Baş Məclisinin 49-cu sessiyasında çıxış, 29 sentyabr 1994-cü il. –Müstəqilliyimiz əbədidir. II kitab, 310 s.*

9. *ARXİNA, 05.04.2003-26.09.2003. Qovluq № S. v.244-245*

10. *Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Dərslik. Bakı, 2009, - 490 s.*

11. *Azərbaycan Respublikası Müdafiə Nazirliyi. (2020). 44 günlük Vətən müharibəsi: Faktlar və rəqəmlər. Bakı, 2021*

12. *Məmmədov, F. Qarabağ münaqişəsinin beynəlxalq hüquqi aspektləri. Azərbaycan Diplomatiyası Jurnalı,2021, 2(1),s. 45-62.*


## XÜLASƏ


Ermənistanın hərbi təcavüzü nəticəsində yaranan qaçqın və məcburi köçkün problemi təkcə humanitar deyil, həm də siyasi problem kimi Azərbaycan üçün prioritet təşkil edir. Bu məsələ beynəlxalq hüquq çərçivəsində Azərbaycanın mövqeyini möhkəmləndirir və eyni zamanda sülh prosesinin davamı üçün əsas amillərdən biridir. Ermənistanın Azərbaycana qarşı təcavüzü təkcə hərbi münaqişə deyil, həm də beynəlxalq hüquq və insan hüquqları baxımından ciddi pozuntular yaratmışdır. Bu təcavüz nəticəsində Azərbaycan öz ərazisinin təqribən 20%-ni itirmiş, həm də Azərbaycanın tale yüklü məsələsi dərin siyasi və diplomatik problem kimi gündəmə gətirilmişdir. XX əsrin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində bölgədə ciddi humanitar böhran yaranmışdır. Bu münaqişə, xüsusilə 1988-1994-cü illər arasında intensivləşmiş və nəticədə Azərbaycandan yüz minlərlə insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu vəziyyət yalnız insan hüquqlarının pozulması deyil, həm də regional sabitlik üçün ciddi təhlükə təşkil edir. Məqalənin məqsədi Ermənistanın Azərbaycana hərbi təcavüzünün qaçqın və məc-

buri köçkünlərin üzləşdikləri siyasi problemlərini elmi cəhətdən təhlil etməkdir. Qaçqın və məcburi köçkün problemi beynəlxalq münasibətlərin aktual mövzusu olaraq qalırdı.

**Açar sözlər:** *qaçqın, məcburi köçkün, deportasiya, Azərbaycan, təcavüz, Ermənistan, BMT, Qaçqınlar üzrə Ali Komisarlıq, Qarabağ münaqişəsi, geosiyasi təhlil,*

**SUMMARY**

The military intervention in Armenia is a major humanitarian problem, and it is a political problem that Azerbaijan has to prioritize. The issue of international justice in Azerbaijan must be solved by the authorities and the timely resolution process. Armenia's war against Azerbaijan is a military supremacy, which creates terrible positions on the basis of international law and human rights. The incidence of blood transfusions in Azerbaijan is approximately 20% higher. This is a political and diplomatic problem for Azerbaijan's problems. In the late 20th century, Armenia's invasion of Azerbaijan became a humanitarian crisis. In this regard, especially between 1988 and 1994, the intensification and development of Azerbaijan increased the number of poor and old people. If the country violates human rights, it represents a regional catastrophic land degradation. The purpose of Armenia and Azerbaijan is to analyze the political problems of military intervention and suffering through scientific evidence. Severe and chronic childhood problems may be related to the current state of affairs.

**Keywords:** *Refugee, Internally Displaced Person, deportation, Azerbaijan, aggression, Armenia, UN, UNHCR. Karabakh conflict, geopolitical analysis.*